# **Həftəlik**
# *Bülleten*

**108**
**12 Sentyabr 2025**



- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və lahiyələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az    www.atmia.az

**Sumqayıt Sənaye Parkının rezidenti Gürcüstana məhsul ixracına başlayıb.**

İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Sumqayıt Sənaye Parkının rezidenti "Sika" MMC ilk dəfə olaraq Gürcüstana müxtəlif növ tikinti məhsullarının ixracına başlayıb. Şirkət tərəfindən bu ölkəyə ilkin mərhələdə 100 tondan çox məhsul göndərilib. Bu barədə İZİA məlumat yayıb.

Qeyd edək ki, "Sika" MMC 2016-ci ildə Sumqayıt Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. İsveçrə kapitallı şirkətin investisiya həcmi 10,3 milyon manat təşkil edir. Müəssisədə 70 nəfərə yaxın daimi iş yeri yaradılıb.

2018-ci ildən 2025-ci ilin I yarısı daxil olmaqla "Sika" MMC tərəfindən 80 milyon manatlıq məhsul satışı həyata keçirilib.



**Azərbaycanda 2040-cı ilədək 13 su anbarının tikintisi başa çatdırılacaq.**

2025-2027-ci illərdə 4, 2027-2030-cu illərdə 9, 2030-2040-cı illərdə isə 13 su anbarının tikintisinin tamamlanması planlaşdırılır.

Bu barədə Bakıda keçirilən 2-ci Beynəlxalq Su Təsərrüfatı Sərgi və Konfransının - “Baku Water Week”in (Bakı Su Həftəsi) açılışı çərçivəsində məlumat verilib.

Məlumata əsasən, bu ilin sonunadək sel və daşqın təhlükəsi olan çayların və riskli ərazilərin müəyyən edilməsi və xəritələşdirilməsi işləri aparılacaq. Eyni zamanda 2026-cı il üzrə riskli ərazilər üzrə sahilqoruyucu mühafizə bəndlərinin inşası, 2027-ci ildə isə riskli ərazilər üzrə sel və daşqın hadisələrinin təsirlərinin azaldılması ilə bağlı zəruri tədbirlərin görülməsi planlaşdırılır.



**Azərbaycanda sahibkarlar 42 milyard manatlıq - MƏHSUL İSTEHSAL EDİBLƏR.**

Bu ilin yanvar-avqust aylarında Azərbaycanda sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 42 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,2 % az sənaye məhsulu istehsal edilib. Bu barədə Dövlət Statistika Komitəsinə istinadən xəbər verilir. Məlumata görə, neft-qaz sektorunda məhsul istehsalı 2,1 % azalıb, qeyri neft-qaz sektorunda isə 4,8 % artıb. Sənaye məhsulunun 61,2 %-i mədənçıxarma sektorunda, 32,3 %-i emal sektorunda, 5,5 %-i elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 1 %-i isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunub. Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 4,7 % azalıb, əmtəəlik qaz hasilatı isə 2,8 % artıb. Emal sektorunda əczaçılıq məhsullarının istehsalı 93,5 %, ağacın emalı və ağacdan məmulatların istehsalı 85,6 %, toxuculuq sənayesi məhsullarının istehsalı 29 %, qida məhsullarının istehsalı 10,8 %, kimya sənayesi məhsullarının istehsalı 8,4 %, tütün məmulatlarının istehsalı 8 %, rezin və plastik kütlə məmulatlarının istehsalı 6,1 %, maşın və avadanlıqların istehsalı 0,7 %, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 1,6 %, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 4,4 % artıb.



**Azərbaycanda bir sıra mühəndis-kommunikasiya obyektlərinin istismarına icazənin forması təsdiqlənib.**

Nazirlər Kabineti 30 avqust 2023-cü il tarixli qərarı ilə təsdiq edilmiş "2023-cü il iyunun 1-dək tikinti obyektinin inşası, yenidən qurulması, yenidən planlaşdırılması, bərpası, təmiri və digər tikinti fəaliyyəti nəticəsində yaradılmış bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla tikinti-quraşdırma işləri başa çatmış qeyri-yaşayış təyinatlı binaların istismarına icazənin formasının təsdiq edilməsi haqqında" qərarında dəyişiklik edilib.

Bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, nəqliyyat, rabitə, energetika və digər mühəndis-kommunikasiya obyektlərinin istismarına icazənin forması təsdiqlənib.



**Azərbaycanda evlərə "kupça" verilməsində - DƏYİŞİKLİK.**

Nazirlər Kabineti "Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları"na dəyişiklik edib.

Bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, çıxarışda göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi (EHİS) üzərindən təqdim edilə (əldə edilə) bilər. Çıxarışda göstərilən məlumatların EHİS üzərindən təqdim edilməsi çıxarışın təqdim edilməsinə bərabər tutulacaq.



# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: SAUDI INFRASTRUCTURE EXPO 2025**
**Tarixlər: 15-17 sentyabr 2025-ci il,**
**Məkan: Riyad Beynəlxalq Sərgi Mərkəzi, Riyad (Səudiyyə Ərəbistanı)**
Səudiyyə İnfrastruktur Sərgisi (SIE), Səudiyyə Ərəbistanı Krallığında ağıllı şəhərlərin yaradılması üçün lazım olan sistemləri və infrastrukturu nümayiş etdirir.

**Sərginin adı: SECURITY & BUILDING CENTRAL ASIA 2025**
**Tarixlər: 17-19 sentyabr 2025-ci il,**
**Məkan: IEC Expo Astana, Astana (Qazaxıstan)**
Qazaxıstan Beynəlxalq Təhlükəsizlik Sistemləri, Binaların Avtomatlaşdırılması və Ağıllı Texnologiyalar Sərgisi

**Sərginin adı: CERSAIE 2025**
**Tarixlər: 22-26 sentyabr 2025-ci il,**
**Məkan: Bolonya Sərgi Mərkəzi, Bolonya (İtaliya)**
Tikinti sənayesi üçün keramika və hamam mebellərinin beynəlxalq sərgisi

**Sərginin adı: BICES 2025**
**Tarixlər: 23-26 sentyabr 2025-ci il**
**Məkan: Çin Beynəlxalq Sərgi Mərkəzi (CIEC), Pekin (Çin)**
Pekin Beynəlxalq İnşaat Maşınları Sərgisi və Seminarı

**Ağdamda 4,3 milyon manatlıq tikinti-quraşdırma işləri bağlı - TENDER – ŞƏRTLƏR**

Ağdam, Füzuli və Xocavənd rayonlarında bərpa, tikinti və idarəetmə xidməti publik hüquqi şəxsi (VÖEN: 3201635961) açıq tender elan edib.
Elan "Ağdam rayonu, 4-cü mərhələ üzrə transformator məntəqələrinin və xarici elektrik təchizatının tikinti-quraşdırma işləri"nin satın alınmasını əhatə edir. İddiaçılar təkliflərini 25.09.2025-ə qədər Ağdam şəhəri ünvanına təqdim edə bilərlər.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi –

Fərid Əzizov, baş məsləhətçi
Əlaqə telefon: +994 50 672 37 77.
Email: f.azizov@afxbti.gov.az



**Xankəndidə 1,5 milyon manata 23 fərdi yaşayış evini təmir edəcək - ŞİRKƏT AXTARILIR – TENDER.**

“Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında bərpa, tikinti və idarəetmə xidməti” publik hüquqi şəxsi (VÖEN: 8000075911) açıq müsabiqə elan edib.
Elan Xankəndi şəhərində yerləşən 23 fərdi yaşayış evinin cari təmir işlərini əhatə edir. İddiaçılar təkliflərini 08.10.2025-ə qədər Xankəndi şəhəri ünvanına təqdim edə bilərlər.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Razim Məmmədov, şöbə müdiri
Email: Razim.m@Xankendi-phs.gov.az
Əlaqə telefonu: +994 10 265 99 79.



## AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ AKADEMİK Y.H.MƏMMƏDƏLİYEV ADINA NEFT-KİMYA PROSESLƏRİ İNSTİTUTU TENDER KEÇİRİR.

Azərbaycan Milli Elmlər Akademiyasının Akademik Y.H.Məmmədəliyev Adına Neft-kimya Prosesləri İnstitutu açıq tender elan edir.
Elanda İnstitutun 1 - ci korpusunun 2 - ci mərtəbəsində muzeyin və tədris təcrübə laboratoriyasının əsaslı təmirinin satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Paşayeva Mehriban, Baş mühasib
Email: xezerm@mail.ru
Əlaqə telefonu: +994 12 490 13 29



**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİNİN "AZƏRTERMİNALKOMPLEKS" BİRLİYİ TENDER KEÇİRİR.**

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin "Azərterminalkompleks" Birliyi açıq tender elan edir.
Elanda "Dövlət Gömrük Komitəsinin Bakı Rəsmiləşdirmə Mərkəzinin tikintisi üçün layihə-smeta sənədlərinin hazırlanması" xidmətinin satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Leyla Hacıyeva, İnspektor
Email: leyla.hajiyeva.11200@customs.gov.az
Əlaqə telefonu:+994 50 226 46 00



**"SEDAM" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ TENDER KEÇİRİR.**

"Sedam" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tender elan edir. Elanda İnzibati idarə binasının əsaslı təmiri və həyətyanı sahəsində abadlıq işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi –

Roman Cabbarov, Şöbə müdiri
Email: roman.cabbarov.sedam@gmail.com
Əlaqə telefonu: +994 12 412 89 70



## FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ TİKİNTİDƏ TƏHLÜKƏSİZLİYƏ NƏZARƏT DÖVLƏT AGENTLİYİNİN TİKİLMƏKDƏ OLAN OBYEKTLƏRİN BİRLƏŞMİŞ MÜDRİYYƏTİ TENDER KEÇİRİR.

Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Tikilməkdə Olan Obyektlərin Birləşmiş Müdriyyəti açıq tender elan edir.
Elanda Şamaxı və İsmayıllı rayonlarında 3 ədəd 3 otaqlı fərdi yaşayış evinin tikintisi nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi –

Rəşad Cəfərov, Müqavilə və satınalma sektorunun müdiri
Email: jafarov.rashad@fhn.gov.az
Əlaqə telefonu: +994 12 512 22 64





**www.atmia.az**